Azərbaycan Respublikası iqtisadiyyat
nazirinin ____ _____ 2024-cü il tarixli
___ nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Layihələrin idarəolunması şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Layihələrin idarəolunması şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət-özəl tərəfdaşlığı və strateji investisiya layihələri sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsini təmin edir, bu layihələrin monitorinqinin təşkilini, habelə sözügedən layihələrlə bağlı informasiyanın toplanılmasını, müsabiqənin keçirilməsini, müşahidə, vizual baxış, təhlil və nəticələrə dair hesabatın hazırlanmasını təmin edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – Nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, eləcə də dövlət-özəl tərəfdaşlığı, habelə strateji investisiya layihələrinin icrasını həyata keçirən sifarişçi təşkilatlar ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. Nazirlik və qurumlar üzrə dövlət-özəl tərəfdaşlığı layihə portfelini formalaşdırır, layihələrin planlaşdırma və həyata keçirilməsi üzrə işləri əlaqələndirir;

2.1.2. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

2.1.3. dövlət orqanları tərəfindən təklif olunan layihələrin qiymətləndirilməsi və qüvvədə olan strateji sənədlər əsasında dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısını hazırlayır;

2.1.4. dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi məqsədilə müsabiqəni və ya birbaşa danışıqları təşkil edir;

2.1.5. Dövlət-özəl tərəfdaşlığı layihələrinin məlumat bazası vasitəsi ilə dövlət-özəl tərəfdaşlığı layihələrinin monitorinqini həyata keçirir;

2.1.6. maraqlı tərəflərlə birgə strateji investisiya layihələrinin əlaqələndirilməsində, formalaşdırılmasında iştirak edir, bu istiqamətdə aidiyyəti təkliflər hazırlayır və icrasını təmin edir;

2.1.7. strateji layihələrin icrasında yaranan maneələrin və risklərin aradan qaldırılması üzrə aiddiyyəti qurum və strukturlarla birgə tədbirlər görür;

2.1.8. müvafiq sahədə normativ-metodiki bazanın formalaşdırılmasında və təkmilləşdirilməsində iştirak edir;

2.1.9. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətində aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

3.1.2. dövlət orqanları tərəfindən təklif olunan layihələrin siyahısına (layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin layihələri) digər aidiyyəti strukturlarla birgə baxmaq, aidiyyəti üzrə münasibət bildirmək;

3.1.3. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üzrə müsabiqə sənədlərinin və müqavilələrin layihəsini və ya müqavilələrin əsas şərtlərinin hazırlanmasını təmin etmək;

3.1.4. özəl tərəfdaşın müəyyən edilməsi məqsədilə müsabiqəni və ya birbaşa danışıqların təşkilini təmin etmək;

3.1.5. müsabiqənin şərtlər toplusunun hazırlanmasını və layihə üzrə dövlət tərəfdaşı ilə razılaşdırılmasını, dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə çıxarılmasını və ya

birbaşa danışıqlar əsasında müqavilənin bağlanılmasını, habelə müqaviləyə dəyişiklik edilməsini təmin etmək;

3.1.6. müsabiqə üzrə layihə təkliflərinə baxılması və qalibin seçilməsi müddətinin müəyyən edilməsini təmin etmək;

3.1.7. dövlət-özəl tərəfdaşlığı müsabiqəsinə təqdim edilmiş hər bir layihə üzrə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrinin iştirakı ilə dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun fəaliyyət göstərən işçi qrupların formalaşdırılmasını təklif etmək;

3.1.8. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasının "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun monitorinqini həyata keçirmək və nəticəsi barədə yekun qiymətləndirmələrə dair münasibət bildirmək; il ərzində təqdim edilmiş yekun qiymətləndirmə sənədləri əsasında icmal hesabat hazırlamaq və bu hesabatı icraçı qurumlara məlumat və nəzərə alınması üçün təqdim etmək;

3.1.9. Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün tələb olunan torpaq sahələrinin müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu formada və müddətdə, lakin dövlət-özəl tərəfdaşlığı müddətindən çox olmamaq şərtilə özəl tərəfdaşa ayrılmasını təşkil etmək;

3.1.10. Dövlət-özəl tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan risk halları yarandıqda, "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 24-cü maddəsinə uyğun olaraq yeni özəl tərəfdaşın təyin edilməsi ilə bağlı rəhbərliyə təkliflər vermək;

3.1.11. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş qaydada dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsi üçün qanunda nəzərdə tutulmuş digər tədbirləri görmək;3.1.12. maraqlı tərəflərlə birgə strateji investisiya layihələrinin formalaşdırılmasında və əlaqələndirilməsində iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

3.1.12. strateji investisiya layihələri üçün təlimatların hazırlanmasını, layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasını, maliyyə risklərini müəyyənləşdirmək və nəticələri barədə rəy verilməsini təmin etmək;

3.1.13. strateji investisiya layihələrinin icrasına dair dövri və yekun hesabatlar əsasında layihələrin icrasının monitorinqini həyata keçirmək, monitorinqin nəticələrini ümumiləşdirmək, həmin məlumatlar əsasında dövri və yekun icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.1.14. strateji investisiya layihələrinin icrasının monitorinqinin nəticələrinə əsasən icra planlarından kənarlaşmalara və problemlərə dair qeydlər aparmaq, zəruri hallarda

layihələrin xərc və icra qrafiklərinə dəyişiklərin edilməsi və ya icrasının dayandırılması ilə bağlı təkliflər vermək;

3.1.15. strateji investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə dövlət investisiyalarının idarəedilməsinin monitorinqi informasiya sisteminin idarə olunmasında iştirak etmək;

3.1.16. strateji investisiya layihələrinin səmərəli həyata keçirilməsi məqsədilə nəzarət üsulları və metodları müəyyən etmək;

3.1.17. müvafiq sahədə beynəlxalq təcrübənin tətbiqi və şöbənin potensialının artırılması istiqamətində beynəlxalq donor təşkilatları ilə əməkdaşlıq etmək;

3.1.18. dövlət-özəl tərəfdaşlığı layihələrinin və strateji investisiya layihələrinin icrası və monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

3.1.19. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.20. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsində iştirak etmək;

3.1.21. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.22. fəaliyyətinin nəticələrinə dair iqtisadi təhlil üzrə statistik məlumat bazasını formalaşdırmaq və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.1.23. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.24. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Vəzifələrini yerinə yetirmək üçün şöbənin aşağıdakı hüquqları vardır:

4.1.1. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı aidiyyəti dövlət orqanlarına təkliflər vermək, dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasının monitorinqini həyata keçirmək və qiymətləndirilməsində iştirak etmək;

4.1.2. Nazirliyin strukturları tərəfindən hazırlanmış sənəd layihələrinə (məktub, arayış, sorğu və s.) dair aidiyyəti üzrə rəy və təkliflər vermək;

4.1.3. fəaliyyət istiqamətlərinə uyğun təhlillər, ümumiləşdirmələr və monitorinqlər aparmaq, analitik materiallar hazırlamaq, dövlət-özəl tərəfdaşlığı sahəsindəki qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) əldə olunması barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. bu Əsasnamədə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri), göstəriciləri almaq;

4.1.6. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.7. Nazirlikdə və ya digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, kredit danışıqlarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.8. Nazirliyin qurumlarının strateji inkişaf planlarının hazırlanmasında və strateji hədəflərin qoyulmasında yeni layihələr barədə təkliflər vermək;

4.1.9. dövlət-özəl tərəfdaşlığı, habelə strateji investisiya layihələrinin monitorinqi prosesində zəruri hallarda ekspertlərin və ixtisaslı mütəxəssislərin cəlb olunması ilə bağlı rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.1.10. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatların və işçi qrupların fəaliyyətində iştirak etmək;

4.1.11. Nazirliyin müəyyən etdiyi hallarda, investisiya layihələrini idarə etmək, belə layihələrin icrasına məsuliyyət daşımaq;

4.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Dövlət-özəl tərəfdaşlığı sektoru və Strateji layihələr sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Dövlət-özəl tərəfdaşlığı sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətində aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.1.2. dövlət orqanları tərəfindən təklif olunan layihələrin siyahısına (layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin layihələri) digər aidiyyəti strukturlarla birgə baxmaq, aidiyyəti üzrə münasibət bildirmək;

6.1.3. dövlət-özəl tərəfdaşlığı layihələrinin monitorinqinin təşkilində və həyata keçirilməsində iştirak etmək;

6.1.4. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üzrə müsabiqə sənədlərinin və müqavilələrin layihəsini və müqavilələrin əsas şərtlərini hazırlamaq;

6.1.5 özəl tərəfdaşın müəyyən edilməsi məqsədilə müsabiqəni və ya birbaşa danışıqların təşkilini təmin etmək;

6.1.6. müsabiqənin şərtlər toplusunun hazırlanmasını və layihə üzrə dövlət tərəfdaşı ilə razılaşdırılmasını, dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə çıxarılmasını və ya birbaşa danışıqlar əsasında müqavilənin bağlanılmasını, habelə müqaviləyə dəyişiklik edilməsini təmin etmək;

6.1.7. dövlət-özəl tərəfdaşlığı ilə bağlı layihə təkliflərinin monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə məlumat bazası sisteminin qurulması və idarə olunmasında iştirak etmək;

6.1.8. dövlət-özəl tərəfdaşlığı layihələrində nəzərdə tutulmuş tədbirlərin icrasının, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsinə dair təkliflər vermək;

6.1.9. dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası və monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

6.1.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Strateji layihələr sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. maraqlı tərəflərlə birgə strateji investisiya layihələrinin əlaqələndirilməsində və formalaşdırılmasında iştirak etmək, bu istiqamətdə aidiyyəti təkliflər hazırlamaq və icrasını təmin etmək;

6.2.2. strateji investisiya layihələri üçün təlimatların hazırlanması, layihə-konsepsiya, ilkin texniki-iqtisadi əsaslandırma, texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

6.2.3. strateji investisiya layihələrinin icrasına dair dövri və yekun hesabatlar əsasında layihələrin icrasının yoxlanılmasını həyata keçirmək, nəticələrini ümumiləşdirmək, həmin

məlumatlar əsasında dövri və yekun icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

6.2.4. strateji investisiya layihələrinin icrasının monitorinqinin nəticələrinə əsasən icra planlarından kənarlaşmalara və problemlərə dair qeydlər aparmaq, zəruri hallarda layihələrin xərc və icra qrafiklərinə dəyişiklərin edilməsi və ya icrasının dayandırılması ilə bağlı təkliflər vermək;

6.2.5. strateji investisiya layihələrinin vahid reyestrinin aparılmasını və onların icra vəziyyətinə dair hesabatların hazırlanmasını təmin etmək;

6.2.6. monitorinqin nəticələrinə görə strateji investisiya layihələrinin icrasında və ya ayrılmış vəsaitin istifadəsində gecikmələr müəyyən edildiyi təqdirdə, həmin vəsaitin digər layihələrin icrasına yönəldilməsi məqsədilə təkliflər hazırlamaq;

6.2.7. strateji investisiya layihələrinin icrasının monitorinqi və qiymətləndirilməsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi məqsədi ilə dövlət investisiyalarının idarəedilməsinin monitorinqi informasiya sisteminin idarə olunmasında iştirak etmək;

6.2.8. strateji investisiya layihələri ilə bağlı nəzərdə tutulmuş tədbirlərin icrasının, həmçinin sifarişçi təşkilatların bu sahədə fəaliyyətlərinin əlaqələndirilməsini təmin etmək;

6.2.9. strateji investisiya layihələrinin icrası və monitorinqi sahələrində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

6.2.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.11. rəqəmsal transformasiya və innovasiyaların sektorda inteqrasiyasını təmin etmək, layihə idarəetmə proseslərində rəqəmsal texnologiyaların və yenilikçi yanaşmaların tətbiqini həyata keçirmək;

6.2.12. investisiya layihələrinin idarə edilməsi üzrə mütəxəssislərin peşəkar inkişafını dəstəkləmək məqsədilə təlim və seminarlar təşkil etmək;

6.2.13. beynəlxalq təcrübə mübadiləsi üçün xarici tərəfdaşlarla əməkdaşlıq qurmaq;

6.2.14. layihələrin planlaşdırılması və icrasında dayanıqlılıq və çevrəyə minimal təsir göstərəcək standartların tətbiqini təmin etmək;

6.2.15. strateji layihələrin planlaşdırılması və icrası zamanı risklərin idarə edilməsi proseslərini təkmilləşdirmək;

6.2.16. layihələrin effektivliyini və nəticələrini qiymətləndirmək üçün metodologiyaları və ölçmə alətlərini inkişaf etdirmək;

6.2.17. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.